"Təsdiq edirəm"

Azərbaycan Tibb Universitetinin rektoru

_______ professor G.Ç.Gəraybəyli

"28" _____dekabr_____ 2019-cu il

Azərbaycan Tibb Universitetidə elmi-pedaqoji personalın kompetensiya səviyyəsinin bal-reytinq cədvəlinə əsasən qiymətləndirilməsi

QAYDALARI

1. Universitet müəllimlərinin kompetensiya səviyyəsinin qiymətləndirilməsi tədrisin keyfiyyətinin təminatının tərkib hisssəsidir və Ali təhsil sisteminin Avropa ali təhsil məkanının tələblərinə daha da uyğunlaşdırılması, Azərbaycan Tibb Universitetinin elmi-pedaqoji personalın tədrisinin və tədqiqatlarının keyfiyyətinin inkişaf etdirilməsi məqsədi ilə həyata keçirilir.

2. Bu Qaydalar Azərbaycan Respublikasının Əmək Məcəlləsinə, "Təhsil haqqında Azərbaycan Respublikasının Qanununa, Universitetin Nizamnaməsinə "Universitetin Elmi Şurasının 27.02.2017-ci il tarixli qərarı ilə qəbul edilmiş "Təhsilin keyfiyyətinin təminatı sistemi haqqında" Bəyənnaməyə müvafiq tərtib olunmuşdur.

3. Müəllimin kompetensiya səviyyəsinin qiymətləndirilməsinin bal-reytinq cədvəlinə və aparılmış anket-sorğularına əsasən həyata keçirilir.

4. Müəllimin kompetensiya səviyyəsi- tibb təhsili sahəsində uğurlu və səmərəli fəaliyyəti üçün zəruri biliklərin, bacarıqların və şəxsi keyfiyyətlərin qəbul edilməsinin praktik nümayişidir.

5. Müəllimin kompetensiya səviyyəsinin qiymətləndirilməsinin əsas prinsipləri

-keyfiyyətin səviyyəsinin daimi monitorinqi və onun yüksəldilməsi istiqamətində iş aparılması;

-keyfiyyətin qiymətləndirilməsi prosedurunun şəffaflığı və obyektivliyi;

-qiymətləndirilmənin nəticəsinin müzakirəsi,zamanı qarşılıqlı etibar və aşkarlıq şəraiti;

-keyfiyyətin qiymətləndirilməsi proseduruna tələbələrin cəlb olunması.

6. Müəllimin kompetensiya səviyyəsinin qiymətləndirilməsi proseduru:

6.1 Seçki müddətinin başa çatmasına 2 ay qalmış müəllimin şəxsən doldurulmuş və təsdiqedici sənədlər əlavə edilmiş bal-reytinq cədvəli komissiyaya təqdim edilir. Komissiyanın tərkibi rektorun əmri ilə təsdiq edilir.

6.2 Bal-reytinq cədvəli müsabiqə sənədləşməsinin bir hissəsidir (Əlavə N1). Bal-reytinq cədvəli üzrə şəxsin son 5 ili əhatə edən elmi-pedaqoji fəaliyyətini əks etdirərək hesabata aşağıdakılar daxildir:

- tədris fəliyyətinin hesabatı;

- tədris-metodik işlərin hesabatı;

-elmi-tədqiqat işlərin hesabatı;

-səhiyyənin təşkili və müalicə işinin hesabatı;

-inzibati(içtimai) işlər.

6.3 Müəllimin fəaliyyətinin tələbələr tərəfindən qiymətləndirilməsi komissiya tərəfindən anket-sorğu (Əlavə N2) vasitəsilə aparılır və nəticəsi bal-reytinq cədvəlinə əlavə olunur.

6.4 Komissiya tərfindən bal-reytinq cədvəlin 2 həftə müddətində yoxlanılır və nəticədə müəllimin kompetensiya səviyyəsi qiymətləndirilməsi aparılır.